

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 42 (23.204)

28 fevral 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin fevralın 27-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Salome Zurabişvilini qarşılayıb.

Fevralın 27-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin təkbətək görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Fevralın 27-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti xanım Salome Zurabişvili mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin şərəfinə rəsmi ziyafət verilib.

Dövlət başçıları rəsmi ziyafətdə çıxış ediblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ali Məclisin Sədri qonaqları Naxçıvanda görməkdən məmnunluğunu ifadə etmiş, yeni vəzifəsində Qulamrza Süleymaniyə uğurlar arzulamışdır. Ali Məclisin Sədri ölkə prezidentləri arasındakı xoş münasibətin Azərbaycan-İran əlaqələrinin inkişafında mühüm amil olduğunu bildirmişdir. Naxçıvan Muxtar Respublikası ilə İranın Qərbi və Şərqi Azərbaycan vilayətləri arasındakı iqtisadi və mədəni əlaqələrdən bəhs edən Ali Məclisin Sədri gömrük-keçid məntəqələrinin fəaliyyətini və gediş-gəlişin artmasını əməkdaşlığın nəticəsi kimi dəyərləndirmişdir.



Ali Məclisin Sədri muxtar respublikanın iş adamlarının Maku Azad Ticarət və Sənaye Zonası ilə əlaqələrindən danışmış və səfərin əhəmiyyətini vurğulamışdır.

Qulamrza Süleymani İranın Azad Ticarət, Sənaye və Xüsusi İqtisadi Zonalar üzrə rəhbəri Morteza Bankın və Qərbi Azərbaycan Vilayətinin valisi Məhəmməd Mehdi Şəhriyarinin salamlarını Ali Məclisin Sədrinə çatdırmışdır. Maku Azad Ticarət və Sənaye Zonasının fəaliyyətindən danışan Qulamrza Süleymani ikitərəfli əlaqələrə və Naxçıvan Muxtar Respublikasının inkişafına diqqət çəkmiş, əməkdaşlığın perspektivlərini qeyd etmişdir.

Ali Məclisin Sədri İranın Azad Ticarət, Sənaye və Xüsusi İqtisadi Zonalar üzrə rəhbərinin və Qərbi Azərbaycan Vilayətinin valisinin salamlarına görə təşəkkür etmiş, onun da salamlarını Morteza Banka və Məhəmməd Mehdi Şəhriyariyə çatdırmağı xahiş etmişdir.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İranlı qonaqlar Naxçıvanda fəaliyyət göstərən istehsal müəssisələri ilə tanış olublar

Fevralın 27-də İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymaninin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib. Sonra qonaqlar Heydər Əliyev Muzeyini ziyarət edərək, ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Naxçıvan Biznes Mərkəzinə gələn nümayəndə heyəti burada sərgilənən istehsal məhsulları ilə yaxından tanış olub. Məlumat verilib ki, muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Qonaqlar Naxçıvanda fəaliyyət göstərən istehsal müəssisələrində də olublar. "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin istilik panelləri və dam örtükləri istehsalı müəssisəsi ilə tanışlıq zamanı nümayəndə heyətinə bildirilib ki, müəssisədə 5620 kvadratmetr sahədə dam örtükləri, istilik panelləri və boyama istehsalı xətləri yaradılıb, müasir avadanlıqlar quraşdırılıb. Təcrübəli mütəxəssislərin çalışdığı müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir. Kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş texnoloji avadanlıqlarda verilən sifarişə uyğun işlər avtomatlaşdırılmış şəkildə yerinə yetirilir.





"Gəmiqaya Bərəkət Qida Məhsulları" MMC-nin istehsal prosesi ilə maraqlanan qonaqlara məlumat verilib ki, dövlət maliyyə dəstəyi ilə müəssisədə çörək, makaron və peçenye, süd məhsulları və Şərq şirniyyatları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliyadan gətirilən müasir texnoloji avadanlıqlar quraşdırılıb. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli məhsul 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sahəsində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, milli şirin çörək və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır. Müəssisədə bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil olunub.

Nümayəndə heyəti "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-də də olub, bu müəssisənin istehsal gücü, burada istehsal edilən məhsulların çeşidi haqqında ətraflı məlumat öyrənib. Qeyd olunub ki, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Müəssisədə Türkiyə istehsalı olan "Sesemak" markalı avadanlıqlar quraşdırılıb. Böyük və kiçikölçülü travertin plitələrdən, əsasən, binaların fasadının və həyətyanı sahələrin bəzədilməsində, mozaik travertinlərdən isə müxtəlif naxışlı bəzək üzlüklərinin hazırlanmasında istifadə olunur. Gündəlik maksimum istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər, sienit də istehsal edilir. Həmçinin müəssisədə dekorasiya sexi də fəaliyyət göstərir. Burada müasir texnoloji avadanlıqlar quraşdırılıb.

"Gəmiqaya Mebel Fabriki" MMC ilə tanış olan qonaqlara bildirilib ki, müəssisədə müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün Almaniya, İtaliya və Türkiyə respublikalarından müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Hazırda fabrikdə divan-kreslo və yumşaq oturacaqlı stullar, həmçinin ofis, mətbəx, yataq, qonaq və uşaq otağı mebelləri, müxtəlif qapı-pəncərə modelləri hazırlanır. Bu ünvanda müştərilər müxtəlif ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, binalar üçün müxtəlif avadanlıqları seçə, dizayn-dekorasiya xidmətlərindən yararlana bilərlər.

Qonaqlar "Gəmiqaya Mineral Sular" MMC-nin və Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə də yaxından tanış olublar.

## Qulamrza Süleymani: "Gələcəkdə Naxçıvanın təcrübəsindən faydalanaraq müştərək məhsullar istehsal etmək niyyətindəyik"



İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymani "Şərq qapısı" qəzetinə müsahibəsində səfərin məqsədi barədə danışaraq deyib:

– İran İslam Respublikasının qonşu Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı əlaqələri yüksək səviyyədədir. İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının Naxçıvanla, təxminən, 140 kilometr sərhədi vardır. Azad zonanın inkişaf layihəsi çərçivəsində biz muxtar respublika ilə gömrük, tranzit, logistika, sənaye, turizm və digər sahələrdə, eləcə də istehsal olunan məhsulların müştərək ixracatı istiqamətində əməkdaşlıq qura bilərik. Səfər zamanı bütün bu məsələlərlə bağlı bir sıra yüksək səviyyəli görüşlər keçirdik, gələcək əməkdaşlığa dair çox faydalı müzakirələr apardıq. Düşünürəm ki, bu istiqamətdə həyata keçirilən işlər faydalı nəticələr verəcəkdir.

Qulamrza Süleymani vurğulayıb ki, müzakirələrdə yeni təkliflər səsləndirildi və biz gələcəkdə həmin təklifləri də icra etmək niyyətindəyik: "Bizim 500 min hektar ərazimiz var və fikrimcə, orada bu təklifləri gerçəkləşdirmək üçün geniş imkanlar mövcuddur. Onu da xüsusi qeyd edim ki, görüşlər zamanı Naxçıvanda iqtisadiyyatın inkişafı istiqamətində lazımi tədbirlər həyata keçirildiyini, dövlətin sahibkarlara biznes fəaliyyətini qurmaq, genişləndirmək üçün maliyyə yardımı göstərdiyini öyrənmək mənim üçün maraqlı oldu. Bütün bunları nəzərə alaraq gələcəkdə Naxçıvanın təcrübəsindən yararlanıb müştərək məhsullar da istehsal etmək niyyətindəyik. İnanıram ki, atacağımız addımlar hər iki tərəf üçün uğurlu olacaqdır".

**Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

Naxçıvan Muxtar Respublikası – 95

# Muxtariyyətin bəhrələri: müasirləşən, şəhərləşən kəndlərimiz

***Hər dəfə Naxçıvanın dünənindən və bu günündən söhbət düşəndə, heç şübhəsiz, burada yaşayan insanların həyat səviyyəsinin dəyişilməsi və yüksək yaşayış standartlarının yaradılmasına gətirib çıxaran yolun izlərinə bir daha qayıdırıq. Bir anlıq keçmişə qayıdanda bu, aydın görünən həmin o izlərdir ki, onlar tarix kimi muxtar respublikanın paytaxtından tutmuş ən ucqar dağ və sərhəd kəndlərinədək bütün diyarımızı çıraqbana, yollarımızı gülzarlığa, kəndlərimizi şəhərlərə çevirən, yay-qış demədən davam etdirilən möhtəşəm quruculuğun salnaməsini əks etdirir. Muxtar respublikamızın 200-dən artıq yaşayış məntəqəsi arasında sosial-mədəni həyat şəraiti ilə seçilən kəndlərimizin böyük əksəriyyəti Naxçıvanda aparılan bu inkişaf və quruculuqdan bəhrələnib.***

Müasir Naxçıvanda şəhər mədəniyyətinin yaranması və çiçəklənməsi yaşadığımız diyarda uzaq keçmişdən bu günə qədər müxtəlif dövlətlərin yaranması və geosiyasi maraqların formalaşmasına mühüm təsir edib. Eləcə də Naxçıvanın muxtariyyət statusunu qazanması da yüz ilə yaxın bir müddətdə tarixi ədalətsizliyə məruz qalmış Azərbaycanın ərazi bütövlüyünün qorunması məqsədilə atılmış müdrik addımlardan olub. Daha sonrakı dövrdə Naxçıvanın inkişafı üçün qəbul olunmuş qərarlar və görülmüş bütün işlər məhz bu muxtariyyəti möhkəmləndirməyə öz töhfəsini verib. Burada əhali məskunlaşması və buna müsbət təsir edən amillərin güclənməsi diyarımızda iri yaşayış məntəqələrinin sayının sürətlə artmasına gətirib çıxarıb ki, bunlar arasında muxtar respublikanın şəhər və qəsəbələri ilə yanaşı, sözün əsl mənasında, şəhəri xatırladan iri kəndləri də vardır.

Nehrəm, Sədərək, Qarabağlar, Cəhri, Yaycı, Dəmirçi, Dəstə... Mübaliğəsiz demək olar ki, bu kəndlərin adı təkcə Naxçıvanda deyil, ölkəmizdə də tanınır. Bu yeddi iri yaşayış məntəqəsi özlərinə xas məskunlaşma meyilləri ilə yanaşı, həm də yerləşdikləri mövqe, tarixi əhəmiyyəti, əhalisinin məşğulluğu, aparılmış quruculuq tədbirləri ilə yaradılmış sosial-mədəni şərait, habelə yetirmələri ilə tez-tez gündəmə gəlirlər. Muxtar respublikamızda şəhər və kənd arasında fərqin aradan qaldırılması istiqamətində aparılan işlər bu yaşayış məntəqələrinin timsalında qabarıq şəkildə nəzərə çarpır, onların şəhərləşmə perspektivlərini artırır. Şübhəsiz, bir çox insanın ürəyində olan şəhərdə yaşamaq arzusunun reallaşması üçün oraya köçmək əvəzinə şəhər müasirliyinin kəndə gətirilməsi muxtar respublikamızda bu günün reallığıdır.


Dəstə kəndi

Belə yaşayış məntəqələrindən biri də Nehrəmdir. Bu kənd, yuxarıda qeyd etdiyimiz kimi, təkcə Naxçıvanın deyil, ölkəmizin ən iri qəsəbətipli yaşayış məntəqələrindən biridir. Naxçıvan şəhəri ilə bu kəndin arası cəmisi 9 kilometrdir.

Nehrəmdən əlavə, Babək rayonunun digər bir kəndi olan Cəhri Naxçıvan şəhərindən 16 kilometr məsafədə Naxçıvançayın sahilindəki iri yaşayış məntəqəsi kimi diqqəti cəlb edir. Daha sonra Naxçıvan şəhərindən 40 kilometr məsafədə olan Kəngərli rayonunun Qarabağlar, 50 kilometr məsafədə Culfa rayonunun Yaycı, 65 kilometr məsafədə Şərur rayonunun Dəmirçi, bir o qədər məsafədə Ordubad rayonunun Dəstə və 80 kilometr məsafədə ölkəmizin ən qərb nöqtəsi Sədərək rayonunun Sədərək kəndini də qeyd edə bilərik. Bu rəqəmlərə istinadən onu demək olar ki, Naxçıvan Muxtar Respublikasında şəhərlərdən başqa qərbdən şərqə doğru müxtəlif iri yaşayış məntəqələri vardır ki, onlar öz tarixi əhəmiyyətini bu gün də qorumaqdadır. Bu kəndlərin sakinləri qədim yurd yerlərinə olan bağlılıqları ilə də yaxşı tanınırlar.

Cəmiyyətin ən qiymətli sərvəti insan resurslarıdır. İnsan resurslarının geniş olması həmin kəndlərimizdə infrastruktur, emal-istehsal və sosial-mədəni şəraiti də şərtləndirən amillərdəndir. Naxçıvanın adıçəkilən kəndləri arasında tarixi qədimliyi, milli adət-ənənələrə bağlılığı ilə Nehrəm və Qarabağlar kimi turizm potensialı olanları da vardır. Dövlət qayğısı ilə tamamilə yeni libasına qovuşmuş kəndlərimizdə müasir sosial-mədəni həyatın bütün şərtləri şəhər standartları səviyyəsindədir. Dünyanın və Avropanın qabaqcıl ölkələrində mövcud olan yol, enerji, rabitə, içməli su, kanalizasiya infrastrukturu bu kəndlərimizin əhalisi üçün də əlçatan olub, bəzi göstəricilər, məsələn, asayiş, qayda-qanun, icitmai rifahlardan istifadə üzrə hətta onlardan üstündürlər. Odur ki, şəhərləşən kənd dedikdə, heç də əvvəlki görkəmini kosmetik olaraq dəyişən yaşayış məntəqəsi deyil, sözün əsl mənasında, yeni cəmiyyət quruculuğunda insan həyatının keyfiyyət dəyişikliklərini bütün atributları ilə özündə əks etdirən yurd yerlərimiz başa düşülür. Şəhər və rayon mərkəzlərimizdə olduğu kimi, bu kəndlərimizdə də təhsil, səhiyyə, mədəniyyət, idman və turizm kimi mühüm sosial sferalarla yanaşı, istehsal-iqtisadi sahədə də qazanılan uğurlar yuxarıda göstərdiyimiz fikirləri bir daha təsdiq edir.

**Nehrəm** kəndi müasir dövrdə müxtəlif istiqamətlərdə sürətlə genişlənməkdə, hər il yeni-yeni fərdi evlər tikilməkdədir. Bu yaşayış məntəqəsində hələ 10 il əvvəl istifadəyə verilmiş kənd mərkəzi, ayrıca doğum şöbəsi olan sahə xəstəxanası, əczaxana, üç tam orta məktəb, bir musiqi məktəbi, mədəniyyət evi, kitabxana, geniş ticarət mərkəzi, 2 məişət evi, şadlıq sarayı, xatirə muzeyi, kənddaxili işıqlandırma və yeni asfalt örtüyü və rahat piyada yolları burada müasirliyin görüntüsü kimi göz oxşayır. Kənddəki sosial xidmət şəbəkəsini yeməkxana, ət satışı bazarı, geniş örtülü bazar kompleksi, 3 avtotəmir sexi, bütün məişət xidmətlərinin mərkəzləşdirilmiş halda təklif olunduğu məişət xidməti obyekti tamamlayır. Kənddə quraşdırılmış bankomat və POS-terminallar əhaliyə elektron ödəniş xidmətləri göstərir. Kəndin mərkəzindəki sənaye, ərzaq, təsərrüfat malları, avtoehtiyat hissələri mağazaları ilə yanaşı, kənar məhəllələrdə 5 ticarət obyekti də əhalinin istifadəsindədir.


Nehrəm kəndi

Bu gün Nehrəm ölkəmizin digər yerlərində uğurlu biznes layihələri həyata keçirən çox sayda sahibkarları ilə də tanınır. Heç bir kredit dəstəyi almadan qurduğu işi addımaddım böyüdərək yaxşı biznes sahibi olmuş sahibkarlar çoxdur bu kənddə. Burada xeyli sayda iri fermer təsərrüfatları və istehsal-emal müəssisələri vardır. Bu da muxtar respublikada əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən uğurlu iqtisadi siyasətin bəhrələridir. Nehrəmdə fəaliyyət göstərən “Xalaoğlu” kəndli-fermer təsərrüfatı istehsal etdiyi məhsulların keyfiyyəti ilə seçilir. Nəinki muxtar respublikamızda, ölkəmizdə də bu məhsullara tələbat artmaqdadır. Müəssisədə gündəlik istehsal gücü saatda 5 min tara olan plastik tara istehsalı sahəsinin yaradılması ixrac imkanlarını da genişləndirib.


Dəmirçi kəndi

**Sədərək** kəndi də öz inkişaf səviyyəsi ilə seçilir. Bölgənin inkişaf edən yaşayış məntəqəsi kimi bu kəndin simasını da daha çox şəhər elementləri bəzəməkdədir. Sədərək Rayon Mərkəzi Xəstəxanası, iki tam orta məktəb, Sədərək Kənd Mərkəzi, “Sədərək” şadlıq evi və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin inzibati binası ilə yanaşı, mədəniyyət evi, istirahət parkı, futbol və voleybol meydançaları bu kənddəki mühüm əhəmiyyətli sosial obyektlərdəndir. Buradakı geniş bazar kompleksi və iaşə obyektləri kənd əhalisinin şəhərə üz tutmadan bütün iqtisadi və mədəni tələbatlarını ödəməyə xidmət edir. Kənddəki xalçatoxuma və digər istehsalyönümlü müəssisələr Sədərəyin sosial-iqtisadi inkişafının göstəriciləridir.

Naxçıvanın müasir kəndlərindən biri kimi **Cəhridə** də şəhərə xas olan infrastruktur elementlərini görmək olar. Cəhridə bir çox istehsal və xidmət müəssisələri də vardır. Muxtar respublikamızın hər bir guşəsini ağuşuna almış quruculuqdan Cəhriyə də böyük pay düşüb. Buradakı müasir kənd və xidmət mərkəzləri, iki tam orta və musiqi məktəbləri, iki iaşə xidməti və bir məişət evi kəndə şəhər görüntüsü verib.

Qədim Naxçıvanın yurd yerləri arasında Şərur elinin şöhrəti çox uzaqlarda tanınır. Bir-birinə qolqanad vermiş kimi sıx Şərur kəndlərinin növrağını bəzəyən yeni həyat quruculuğu bu yerlərin sakinlərinin arzularının aynası kimi doğma Arazın köksündə bərq vurur. Əhalisinin sayına görə Şərurun ikinci ən böyük yaşayış məntəqəsi olan **Dəmirçi** kəndinin sakinləri geniş sahələrdə taxıl əkini, üzümçülük və meyvəçiliklə məşğuldurlar. Bununla yanaşı, bu kəndə şəhər görkəmi qazandıran, onun əhalisinin sosial-mədəni şəraitini yüksəldən istehsal və sosial infrastruktur obyektləri də vardır. Burada istifadəyə verilmiş kənd və xidmət mərkəzləri, orta məktəb binası, həkim ambulatoriyası və digər obyektlər Dəmirçinin simasına şəhər ovqatı bəxş edib. Naxçıvan-Sədərək avtomobil yoluna doğru genişlənən kənddə yeni villatipli yaşayış evləri kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsindən xəbər verir.

Qarabağlar deyəndə dövrümüzə qədər qalmış məşhur Qarabağlar türbəsi dərhal yada düşür. XVII əsrdə yaşamış türk səyyahı Övliya Çələbi Qarabağlarda o dövrdə 50 min nəfərin yaşadığını, 10 min evin, 70 məscid, 40 minarə, karvansara, hamam, bazar və sair kimi tipik orta əsr şəhər həyatının olduğunu qeyd edir. Sevindirici haldır ki, bu gün də Qarabağlar kəndi quruculuq meydanına çevrilərək yenidən şəhər olmağa doğru sürətlə böyüməkdədir. Belə ki, geniş əraziyə malik bu qədim yurd yerində hazırda 7 min 300 nəfərdən çox sakin yaşayır. Kənddən keçən müasir Qıvraq-Qarabağlar-Çalxanqala-Təzəkənd dairəvi avtomobil yolu ilə yanaşı, kənd və xidmət mərkəzləri, iki tam orta məktəb, müasir həkim ambulatoriyası, əczaxana və digər sosial obyektlər, eləcə də müxtəlif xidmət və ticarət obyektləri də əhalinin sosial-mədəni tələbatlarının ödənilməsində mühüm rol oynayır.

Yaycı kəndi Culfa rayonunun böyük yaşayış məntəqəsidir. Kəndin yerləşmə mövqeyi də olduqca əlverişlidir. Yaycıda müasir üslubda inşa olunmuş kənd mərkəzinin, iki tam orta məktəbin, həkim ambulatoriyasının, Culfa Rayon Aqrolizinq İdarəsinin binaları ona kənddən daha çox şəhər görkəmi verib. Müasir Yaycı kəndi özünün sosial həyatı, məşğulluğu, gənclərin idmana meyli, mənalı asudə vaxt keçirməsi ilə seçilir. Araz çayı boyunca geniş bir ərazidə yerləşən bu kəndin mikroavtobuslarla hər saatda bir dəfə rayon mərkəzi və Naxçıvan şəhəri ilə nəqliyyat əlaqələri vardır. Bu, əhali üçün rahat nəqliyyat imkanı deməkdir. Kənddəki mədəniyyət evinin, şadlıq sarayının kənd əhalisinin sosial-mədəni tələbatlarının ödənilməsində mühüm əhəmiyyəti vardır. Kənddə quraşdırılmış bankomat və POS-terminallar insanlara rayon mərkəzinə getmədən bu xidmətlərdən istifadə etmək imkanı verir.

Ordubadın **Dəstə** kəndinin torpaqları çox münbitdir. Bu torpaqlarda meyvə və tərəvəzlə yanaşı, digər kənd təsərrüfatı məhsulları yetişdirirlər. Bu qədim yaşayış məntəqəsi torpağa bağlılığın, zəhmətsevərliyin canlı nümunəsidir. Bu bağlılıq onların həyat tərzində, yaşayış səviyyəsində özünü göstərir. Kəndin, demək olar ki, hər evinin qapısında bir minik avtomobili var. Dəstədə hər il 15-20 yeni ev tikilir. Bu yaxınlarda həmin yaşayış məntəqəsində yeni obyektlərin istifadəyə verilməsi isə kənd sakinləri tərəfindən onlara göstərilən davamlı qayğı kimi minnətdarlıqla qarşılanıb. Kompleks tədbirlər çərçivəsində kənddə məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilərək, yollar yenidən qurularaq istifadəyə verilib. Bundan əlavə, Dəstədə tikinti materialları, mebel mağazaları, şadlıq sarayı, ticarət mərkəzi kimi digər sosial obyektlər və istehsal təyinatlı müəssisələr də fəaliyyət göstərir.

**Ölkəmizin ən yeni tarixində yaradılmasının 95 illiyini təntənə ilə qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasının intibahı ilə bağlı yazılmış səhifələr parlaq yer tutur. Bu, elə bir dövrdür ki, Naxçıvanın siması tamamilə dəyişdirilib, müasirləşib, abadlaşdırılan şəhər yolun kəndlər yeni rifaha qovuşub. Bu tarixi vərəqlədikcə keçilən yolun canlı şahidi oluruq. Naxçıvanın şəhərləşən kəndləri də bu yolda inamla irəliləməkdədir.**

Əli CABBAROV

*Bu yazı “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.*


Cəhri kəndi


Sədərək kəndi


Qarabağlar kəndi

# Naxçıvan Muxtar Respublikasında müasir rabitə sistemi yaradılıb



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 28 fevral tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdır. Ali Məclis Sədrinin 2014-cü il 19 sentyabr tarixli digər Fərmanı ilə isə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılmış, nazirliyin səlahiyyətləri daha da genişləndirilmişdir.***

Muxtar respublikanın hazırkı sosial-iqtisadi inkişafı rabitə və yeni texnologiyaların rolunu daha da artırmışdır. Son illərdə muxtar respublikada əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə konkret vəzifələr müəyyənləşdirilmiş, rabitə sektoruna investisiyaların cəlb edilməsi nəticəsində istismarda olan avtomat telefon stansiyaları müasir tələblərə cavab verən yeni rabitə sistemi ilə əvəz olunmuş, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir.

Muxtar respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 5 mərhələdən ibarət layihənin 4-ü artıq başa çatdırılıb. Culfa rayonu ərazisində Yeni Nəsil Telekommunikasiya Sisteminin qurulması ilə əlaqədar Çin Xalq Respublikasının “Huawei” şirkəti ilə müqavilə imzalanmışdır. Layihənin 2019-cu ildə başa çatdırılması nəzərdə tutulur.

Ötən il iyul ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Ordubad rayonu ərazisində Yeni Nəsil Telekommunikasiya Sisteminin və Ordubad şəhərində yeni tikilən Rabitə Evinin açılışı olmuşdur. Həmçinin İbadulla Radio-Televiziya Verici Stansiyasının yeni binası da istifadəyə verilmişdir.

Son illər muxtar respublikada rabitə sahəsində əldə edilən sürətli inkişaf, fiber-optik xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkələrinin yaradılması, poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaratmışdır. Hazırda muxtar respublika ərazisində 1 mərkəzi poçt, 7 rayon filialı və 177 poçt məntəqəsi fəaliyyət göstərir. 2013-cü ildə “Naxçıvanpoçt”un muxtar respublikanı əhatə edən telekommunikasiya şəbəkəsi qurulmuş, Naxçıvan şəhərində Məlumatların Emalı Data Mərkəzi yaradılmışdır. Poçt məntəqələrində ənənəvi poçt xidməti ilə yanaşı, telefon, elektrik, qaz, sudan istifadə haqlarının, Yeni Azərbaycan Partiyasının üzvlük haqlarının, Dövlət Sosial Müdafiə Fonduna ödənişlərin, bələdiyyə ödənişlərinin, Dövlət Yol Polisinin cərimələrinin qəbulu həyata keçirilir. Hökumət Ödəniş Portalının şəbəkəsinə qoşulmaqla Azərbaycan Respublikası üzrə bank, maliyyə, vergi və digər təşkilatların ödənişlərinin qəbulunun poçt məntəqələrində həyata keçirilməsi təmin olunub. Poçt məntəqələrində nağdsız ödənişlərin təşkili üçün 172 POS-terminal qoyulub. Ötən ildən əmək pensiyalarının pensiyaçıların istəklərinə uyğun olaraq poçt məntəqələrində paylanmasına başlanılıb. Hazırda bu xidmətdən pensiya alanların sayı 347 nəfərdir. Pensiya ödənişlərinin avtomatlaşdırılması məqsədilə “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin mütəxəssisləri tərəfindən elektron bazalı proqram təminatının hazırlanması başa çatdırılmış və bu il fevral ayının 1-dən istifadəyə verilmişdir.

Yeni texnologiyaların inkişaf tempi elektron imzadan istifadəyə tələbatı da artırmışdır. Bu tələbatı ödəmək məqsədilə muxtar respublikada “Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi” yaradılmış, “Naxçıvanpoçt” MMC-nin rayon filiallarında elektron imza kartının verilməsi təşkil edilmişdir. Bundan əlavə, “Naxçıvanpoçt” MMC-nin nəzdində “İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti” fəaliyyətə başlamışdır. “İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti” üçün “Naxçıvanpoçt” MMC-nin *www.naxcivanpoct.az* internet saytında xüsusi bölmə yaradılmış, 225 qaynar xətti istifadəyə verilmişdir.

Hər il muxtar respublikada yeni fiber-optik xətlər çəkilir və bu xətlər üzərində iritutumlu telekommunikasiya şəbəkələri qurulur. Hazırda muxtar respublikada fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1527 kilometrə yaxındır. Bu da muxtar respublikada rabitə əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətləri və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir. Son iki ildə Türkiyə istiqamətində əlavə fiber-optik kabel xətti çəkilmiş və muxtar respublikaya daxil olan internet kanalının həcmi iki dəfə artırılmışdır. Bu gün muxtar respublikanın yaşayış ərazilərinin 98,6 faizində genişzolaqlı, 99,5 faizində isə mobil internet xidmətləri göstərilir. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən genişzolaqlı asinxron rəqəmsal abunəçi xətləri texnologiyası vasitəsilə ötən il ərzində 7300-dən artıq yeni istifadəçi internetlə təmin olunmuş, əhali üzrə genişzolaqlı internet paylayıcı nöqtələrinin aktiv sayı 30 minə yaxınlaşmışdır. Ötən il ərzində Naxçıvan “İslam Mədəniyyətinin Paytaxtı – 2018” beynəlxalq tədbirinə həsr edilmiş *imp.nakhchivan.az,* Bəhruz Kəngərli Muzeyinin *behruzkengerli.nakhchivan.az,* Duz Muzeyinin *duzmuzeyi.nakhchivan.az* və Qarabağlar Türbə Kompleksinin *garabaglartk.nakhchivan.az* saytları hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar yaradılmış “Elektron hökumət” portalının imkanları ildən-ilə inkişaf etdirilir. “Bir pəncərə” prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunub. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən 150-yə yaxın dövlət və ictimai təşkilata elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Bunun üçün İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, əlavə server avadanlıqları və irihəcmli məlumatların qəbulu və paylanması üçün şəbəkə avadanlıqları alınıb quraşdırılmışdır. Ötən il İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Naxçıvan, Şərur və Culfa şəhərlərindəki filiallarında kompüter və ingilis dili kurslarında 505 nəfər təhsil almışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada elektron təhsil infrastrukturunun yaradılması və təhsildə yeni texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılır. Son illər bu istiqamətdə işlər daha da genişləndirilmişdir.Təhsil müəssisələrində kompüter dəstləri quraşdırılaraq internetə qoşulur. Həmçinin təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün distant təhsil sistemi yaradılmış, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şəbəkəsində elektron təhsil xidməti istifadəyə verilmiş, orta ixtisas və ümumtəhsil məktəblərinin iştirakı ilə distant dərslərin keçilməsinə başlanmışdır. Hazırda muxtar respublikanın 236 təhsil müəssisəsi və 17 muzeyi distant təhsil sisteminə qoşulub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də Distant Tədris Mərkəzi yaradılmış, elektron kitabxana və “258” telefon xidməti üzərindən fəaliyyət göstərən audiokitabxana yaradılmışdır. Hazırda bu sistem vasitəsilə 22 şagird təhsil alır, audiokitabxanadan 352 nəfər istifadə edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı bir sıra işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyi ilə mobil operatorlar tərəfindən yaxşı nəticələri olan Naxçıvan Dövlət Universitetindən 6, “Naxçıvan” Universitetindən isə 2 tələbəyə 2018-2019-cu tədris ilində aylıq 200 manat təqaüd verilməsi təmin edilmiş, nazirliklə Çin Xalq Respublikasının “Huawei” şirkəti arasındakı razılaşmaya uyğun olaraq “Gələcəyin İKT sahəsindəki toxumları” adlı növbəti müsabiqənin qalibi olan dörd tələbə “Huawei” şirkətinin Şenjen şəhərindəki təlim mərkəzində istehsalat təcrübəsinə göndərilmişdir. Həmçinin 2017-2018-ci tədris ilində “Huawei” şirkətinin mütəxəssisləri tərəfindən “Naxçıvan” Universitetində yaradılan İKT mərkəzində tələbələr üçün 7 seminar-treninq keçirilmişdir. Ötən ilin oktyabr ayında Naxçıvan Dövlət Universitetində “İdeyadan-Biznesə” ümumrespublika startap müsabiqəsi təşkil edilmişdir. 2018-ci il ərzində Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları ixtisasının 3-cü və 4-cü kurs tələbələrinin, Naxçıvan Dövlət Texniki Kollecinin Poçt və bank işi ixtisası üzrə təhsil alan tələbələrinin nazirlikdə və onun tabeliyində olan qurumlarında istehsalat təcrübəsi keçməsi təşkil edilmiş, tələbələr bilavasitə praktik işlərə cəlb olunmuşlar. Ötən il hamiliyə götürülmüş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər keçirilmiş, Naxçıvan Dövlət Universitetini, “Naxçıvan” Universitetini, Texniki Kolleci və peşə məktəblərini bitirmiş 19 məzun nazirlik və onun tabe təşkilatlarında daimi işlə təmin edilmişlər.

Müasir texnologiyaların tətbiqi muxtar respublika ərazisində rəqəmsal radio-televiziya yayımının təşkilinə də əsaslı zəmin yaratmışdır. 2014-cü ilin dekabr ayından analoq televiziya yayımı dayandırılmış, 6 güclü və 44 azgüclü verici stansiya vasitəsilə muxtar respublika ərazisində rəqəmsal televiziya yayımına keçid təmin edilmişdir. Hazırda bütün yaşayış məntəqələrində 12 televiziya və 9 radionun rəqəmsal yayımı təmin edilmişdir. Azərbaycan Respublikasında ilk dəfə teleradio kanallarının bir tezlik üzərindən yayımını təmin edən SFN texnologiyası Naxçıvan Muxtar Respublikasında tətbiq olunub. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin tərkibində 2004-cü ildən “Kanal 35” informasiya-tədris televiziyası, 2005-ci ildən isə “Naxçıvanın səsi” radiosu fəaliyyət göstərir.






Muxtar respublikada 2016-cı ildən etibarən dördüncü nəsil mobil rabitə şəbəkəsi fəaliyyət göstərir. Muxtar respublikanın yaşayış məntəqələrinin 99 faizini əhatə edən dördüncü nəsil mobil rabitə şəbəkəsinin 2018-ci ildə abunəçi sayı 2 dəfə artmışdır. Hazırda Naxtelin qeydiyyatdan keçən abunəçi sayı 65 mini ötüb. Naxçıvan şəhərindəki və rayonlardakı Naxtel Satış və Xidmət mərkəzləri abunəçilərə keyfiyyətli mobil rabitə xidmətləri təklif edir. “Naxçıvanbank”a məxsus POS-terminallar, ATM və vətəndaşların müxtəlif kateqoriyalı ödənişlərini vahid ödəniş platformasından icra etməsi Pay-Point ödəniş terminallarında Naxtelin data şəbəkəsi vasitəsilə həyata keçirilir. Beynəlxalq rominq xidməti artıq 7 ölkədə aktivləşdirilib və digər ölkələrdə də aktivləşdirilməsi üçün işlər test və yoxlama mərhələsindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. 1997-ci ildən başlayaraq muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur”.***

Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə keyfiyyətli poçt və rabitə xidmətləri göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Baş konsul ali təhsil ocağında

*Türkiyə Respublikasının Baş konsulu Mehmet Emin Kiraz “Naxçıvan” Universitetində olub.*

Universitetin kitabxanasında təşkil edilən görüşdə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev universitetin beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Bildirilib ki, “Naxçıvan” Universiteti tərəfindən bir çox xarici universitetlər və beynəlxalq qurumlarla əməkdaşlıq müqavilələri imzalanıb. Bu əməkdaşlıq ortaq elmi proqramların və konfransların keçirilməsinə, tələbə mobilliyinin artırılmasına, müəllim-tələbə mübadilələrinin həyata keçirilməsinə xidmət edir.

Görüş zamanı “Mövlana Mübadilə Proqramı” çərçivəsində “Naxçıvan” Universiteti ilə Türkiyə universitetləri arasında münasibətlərin daha da genişləndirilməsinə dair Türkiyə vətəndaşlarının “Naxçıvan” Universitetinə təhsilə cəlbi ilə əlaqədar bir sıra məsələlər müzakirə olunub. Bundan başqa, Türkiyə universitetlərində çalışan akademik heyətin ali təhsil ocağına dəvət olunması və onların mühazirələr keçməsi ilə bağlı razılıqlar əldə edilib.

Sonra Baş konsul Mehmet Emin Kiraz gətirdiyi 46 cildlik dini ensiklopediyanı universitet kitabxanasına təqdim edib.

**Nuray ƏSGƏROVA**

## *“Tariximizi qoruyaq və yaşadaq” aksiyası keçirilir*

*Zəngin tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyətə malik olan muzeylərimiz gündən-günə tarixi və maddi mədəniyyət nümunələri ilə zənginləşdirilir.*

Qədim maddi mədəniyyət nümunələrinin toplanması və qorunması işində məktəblilərin də iştirakını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təhsil müəssisələrində “Tariximizi qoruyaq və yaşadaq” devizi altında aksiya keçirilir.

Aksiyanın keçirilməsində əsas məqsəd şagirdlərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək, tariximizin öyrənilməsi ilə yanaşı, onun qorunması və yaşadılması istiqamətində də fəal iştirakçıya çevirməkdir. Aksiya çərçivəsində şagirdlər muxtar respublika ərazisində olan qədim maddi mədəniyyət nümunələrini toplayaraq muzeylərimizin zənginləşdirilməsində öz vətəndaşlıq borclarını yerinə yetirəcəklər.

Bu yaxınlarda Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinə Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdləri tərəfindən qədim tariximiz və mədəniyyətimizi əks etdirən küpə, mis məişət əşyaları, daş əmək alətləri, xurcun, saxsı çıraq və digər nümunələrdən ibarət 75 eksponat təqdim olunub.

Aksiya müddətində muxtar respublika üzrə şagirdlər tərəfindən, təxminən, 50-yə yaxın yeni eksponat toplanıb. Aksiya davam etdirilir. Bu tədbirdə fəal iştirak edən müəllim və şagirdlər Təhsil Nazirliyi tərəfindən mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Qədim tarixə və mədəniyyətə malik ölkəmizin həm də hər bir bölgəsinin özünəməxsus yüksək mətbəx mədəniyyəti vardır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda mətbəx mədəniyyəti ən qədim zamanlardan formalaşıb. Arxeoloji qazıntılar zamanı diyarımızın ərazisindən tapılmış kələ-kötür divarlı qazan, çölməktipli qab qırıntıları, dairəvi gil ocaq qurğusu bu torpağın məişət mədəniyyətinin minilliklərə söykəndiyindən xəbər verir. Burada mətbəx mədəniyyəti, qidalanma rejimi və psixologiyası zaman keçdikcə təkmilləşib.***

# Natalia Golumb: “Mətbəxi, insanları, gözəlliyi və lütfü ilə məni heyran edən Ordubad yer üzündə cənnətdir sanki...”




Zəngin tarixi keçmişi, tanınmış şəxsiyyətləri, barlı-bəhərli meyvə bağları ilə yanaşı, həm də ləziz mətbəxi, müxtəlif təamları ilə özünə şöhrət qazanan Naxçıvan diyarının səfalı bölgələrindən biri də “Azərbaycanın incisi” kimi tanınan Ordubaddır. Bu bölgənin mətbəx nümunələri sırasında qayğanaq, paxlava, daş küftəsi, əriştə aşı, quru meyvələr və adını sadalamadığımız onlarla belə məşhur nemətləri diqqəti çəkir. Bu gün də süfrələrimizin bəzəyinə çevrilən, zəngin mətbəx mədəniyyətimizin göstəricisi olan bu nümunələrin şöhrəti ölkəmizin hüdudlarından kənarda da geniş yayılıb. Belə nümunələr Naxçıvan şəhərinə və onun bölgələrinə səyahətə gələn yerli və əcnəbi turistlərin də diqqətini cəlb edir, onlar burada gördüklərini informasiya portalları, sosial şəbəkələr vasitəsilə bölüşürlər.

Bu yaxınlarda səhifələrin birində Ordubadın qədim adət-ənənələri, mətbəx nümunələri, quru meyvələri və zəhmətkeş insanlarının qonaqpərvərliyinin əksini tapdığı video ilə qarşılaşdım. Ordubad limonu barədə ayrıca bir videonun aşağısında isə bu sözlər yazılmışdı: “Qiymətli Ordubad limonu görünüşü, rəngi, dadı, tamı və xoş ətri ilə seçilir. Bu diyarın havası, suyu saf və təmiz, torpağı isə faydalı elementlərlə zəngindir. Ona görə burada yetişdirilən meyvələr də belə dadlıdır”.

Muxtar respublikamızın bölgələrindən biri haqqında deyilən bu sözlər diqqətimi çəkdi. Videonu öz səhifəsində paylaşan şəxslə sosial şəbəkələrin biri vasitəsilə tanış oldum. Söhbət zamanı öyrəndim ki, həmin şəxs restoranlar, aşpazlar, mətbəxlər haqqında olan “Mətbəx Couture” kitabının müəllifi, populyar qastronomiya layihəsinin yaradıcısı Natalia Golumbdur. Dörd yaşından yemək bişirməyi öyrənməyə can atan, əvvəllər adi maraqla bu işi görüb, sonralar peşəkar kulinaristə çevrilən Natalia Golumb hazırda Bakı şəhərində yaşayır. Onun dediklərindən: – Azərbaycan çox gözəl ölkədir, buranın əhalisi gözəl xüsusiyyətlərə malikdir. Azərbaycan milli mətbəxinin tarixi də elə xalqın tarixi qədər qədimdir. Buranın kulinariyası öz tarixi kökləri və özünəməxsusluğu ilə xeyli fərqlənir. Dolma, əriştə, düşbərə, piti, xəngəl, müxtəlif növ plovlar, kabablar... Bunlar milli mətbəx nümunələrindən, sadəcə, bir neçəsidir.

Müsahibim bildirir ki, yemək bişirməyi çox sevir, müxtəlif ölkələrin mətbəx nümunələri ilə maraqlanır və onları hazırda işlədiyi bir restoranın menyusunda tətbiq edir. Bir qədər çətin iş rejimi olsa belə, mətbəxdə vaxt keçirmək mənim üçün xoşdur. Mən bu işə ideoloji cəhətdən yaxınlaşıb “Mətbəx Couture” kitabını yazdım. Bu kitabda Azərbaycan mətbəxinin dadlı təamları, professional aşpazlar, restoranlar haqqında məlumatlar toplanıb.

Onun sözlərinə görə, yemək bişirən adam yeməyə yalnız fiziki deyil, həm də mənəvi təsir göstərir. Sevgiylə, müsbət emosiya ilə bişirilən yemək mütləq dadlı olacaq. Yemək bişirmək bir sənətdir. Rəssamın işi yalnız vizual komponentə təsir edirsə, aşpazın işi qoxu hissini bilən insanın bütün duyğularına təsir edir. Azərbaycan mətbəxində sevimli yeməklərim düşbərə, balqabaq və bişmiş balıq ilə boranı plovu, pitidir. London, Çin, fransız mətbəxini də sevirəm və fərqli yeməklər bişirirəm. Lakin deyərdim ki, dünyada ən güclü mətbəxlər Çin, fransız və türk mətbəxidir. Türk mətbəxinin tacı isə Azərbaycan mətbəxidir. Azərbaycanın zəngin və çeşidli mətbəxi, yüksək qonaqpərvərlik ənənələri vardır. Buradakı mətbəx nümunələri bişirilməsi, tünd ədviyyat və tamlı ələvələr qatılmasına görə digər Şərq ölkələrinin mətbəxinə yaxındır. Hazırda Azərbaycanda xörəklərin hazırlanmasının qədim üsullarının spesifik xüsusiyyətləri saxlanılmaqla yanaşı, müasir mətbəxin tələbləri də geniş surətdə nəzərə alınır. Buraya yüksəkkalorili ət və balıq yeməklərini, vegetarian tələblərə uyğun göyərti və tərəvəzdən hazırlanan yeməkləri də əlavə edə bilərik. Bundan başqa, müxtəlif yerli şərablar, mineral sular, turşular və şirniyyatlar da diqqətəlayiqdir. Yeməklərin dadlı və yüksək qidalı, çeşidli və gözəl görünüşlü olması, bütövlükdə, bu günün milli Azərbaycan mətbəxi üçün də xarakterik haldır.

Natalia Golumb diqqətə çatdırır ki, Azərbaycan qida turizmində cəlbedici ölkədir. Xaricdə Azərbaycan milli yeməklərinin təqdim edildiyi restoranların fəaliyyət göstərməsi bu sahənin inkişafında böyük əhəmiyyət kəsb edir. Mən istəyərdim ki, Azərbaycan öz zəngin mətbəx nümunələri ilə Yaponiya, Çin, İngiltərə kimi ölkələrin siyahısına qatılsın. Düşünürəm ki, bu turizmin inkişafı üçün, ilk növbədə, düzgün təqdimat lazımdır. Buna görə də hər bölgə öz mətbəxini düzgün təbliğ etməlidir. Xüsusi qaydalarla bişirilən Naxçıvan qovurması, ağartı məhsulları, bulama, Ordubad qayğanağı kimi yeməklər turistlər üçün cəlbedicidir.

Bir məqamı da nəzərə alaq ki, hər bir ölkənin mətbəxi orada yaşayan insanlar üçün normaldır, baxmayaraq ki, ziyarətçilərə ekzotik görünür: çox duzlu, kəskin və yağlı kimi. Məsələn, Şərq, Yaponiya və Çin mətbəxində bəzi yeməklərə bir çox dad artırıcılar əlavə edilir. Bu, bir tərəfdən doyurucu funksiya daşısa da, digər tərəfdən orqanizmə zərərli təsir göstərir. Mən gördüm ki, Naxçıvanda, eləcə də Ordubadda hazırlanan yeməklər orijinaldır, onlardan insan sağlamlığına heç bir ziyan gəlməz.

Natalia Golumb deyir: – Mən Naxçıvanda, eləcə də onun səfalı bölgələrindən biri olan Ordubadda ilk dəfə idi, olurdum. Yolboyu dağların müxtəlif rənglər fonunda misilsiz görünüşü, xoş mənzərələr məni cəlb etdi. Biz Ordubadın qədim məhəllələrini gəzdik. Buradakı evlər palçıqdan tikilib. Qədim tarix, mədəniyyət, incəsənət nümunələri, bu yurdun yetirmələri olan ziyalılar və onların fəaliyyətləri ilə ətraflı tanış oldum. Daha sonra Ordubad şəhərinin mərkəzində, çinar ağaclarının altındakı çayxananın yuxarı tərəfində yerləşən “Cümə” məscidində olduq. Bir qədər hündürlükdə yerləşən məscidi xeyli uzaqdan da görmək mümkündür. Ordubad şəhərinin mərkəzində olan “Dübəndi” ailəvi istirahət mərkəzində bu diyarın adı dillər əzbəri olan limonu ilə çay içdik. Sanki yer üzündə cənnətdir Ordubad. İnsanları gözəl, təhlükəsiz, qonaqpərvər, istiqanlı, gülərüzdürlər. Onların çox gözəl xasiyyətləri vardır.

Onu deyim ki, Ordubadın mətbəxi məni həmişə maraqlandırıb. Çox dadlı-tamlı və ləzzətli yeməkləri haqqında eşitmişdim. Ordubada gəlməyimin başlıca səbəbi də elə buranın öz çeşidinə, dadına və faydasına görə seçilən rəngarəng mətbəx nümunələri ilə yaxından tanış olmaq istəyi idi. Ordubadın havası təmiz, insanları istiqanlı olan Gənzə kəndinə də getdim. Buranın təbiəti məndə yüksək əhval-ruhiyyə yaratdı. Düşündüm ki, belə gözəl fauna və floraya malik, havası, suyu təmiz, insanları sevgi dolu olan bir diyarın mətbəxi də elə dadlı və zəngin olmalıdır. Öyrəndim ki, bu diyarda limon bərəkət simvolu hesab edilir və çox qədim dövrlərdən əkilib-becərilir. Ordubadlıların “lumu” adlandırdıqları xoşətirli limona bu yerlərdə hər bir həyətdə rast gəlmək mümkündür. Burada yetişdirilən limonu fərqli edən əsas səbəb isə tərkibinin faydalı elementlərlə, efir yağları, minerallarla zəngin olmasıdır. Ordubadda limonun bir çox sortları yetişdirilir. Alma kimi yeyilən, heç də turş dadmayan limonla da tanış oldum. Ordubaddan özüm üçün bir qədər limon gətirmişdim. Onların şəkil və videosunu səhifədə paylaşandan sonra bəzi dostlarım mənə yazıb, məlumat almaq istədilər. Ordubad mənim üçün tamamilə sehrli bir yer idi. Gözəlliyi və lütfü ilə məni heyran etdi. Mən bu gözəlliyə və onu yaradan insanlara çox sağ olun, – deyirəm.

Müsahibim vurğulayır ki, Ordubad mətbəxi heyranedicidir, digər bölgələrin mətbəxindən çox fərqlənir. Bütün yeməklər, eləcə də soğan dolması, kökələr, qutab, əriştə və başqaları çox dadlıdır. Qidaların keyfiyyətində ocaq amili də böyük rol oynayır. Burada bir sıra təndir növlərindən istifadə edilir və orada bişirilən kabablar, xörəklər, həmçinin közün içərisində közləmə, külləmədə kartof, qarğıdalı, kömbə, bundan başqa, evdə olan ocaqlarda, məsələn, buxarıda qazanda hazırlanan müxtəlif yeməklər öz dadı ilə seçilir. Naxçıvanın bir çox bölgələri həm də nadir bitkilər məkanıdır. Kəklikotu, dağ nanəsi, zirinc, həmərsin, gülxətmi, şiyav, baldırğan və başqaları həm insan sağlamlığı üçün faydalıdır, həm də gündəlik mətbəxdə, bir çox xörəklərin hazırlanmasında istifadə edilir. Mən, ümumiyyətlə, Azərbaycanın bir çox yerlərində, xüsusilə də Naxçıvanda bitən bitkilərlə bağlı tədqiqatlar aparan bir alimə (Stephen Facciola) bununla bağlı köməklik də etmişəm.

*Söhbətimizin sonunda Natalia Golumb bildirdi ki, Naxçıvanda, eləcə də onun digər ərazilərində xörək hazırlamaq, çörək bişirmək ənənəsi çoxdan mövcud olub. Həmçinin mətbəx mədəniyyətinin ən mühüm xüsusiyyətlərindən biri olan qonaqpərvərlik, qonağa hörmət də burada çox güclüdür. Naxçıvanda süfrə mədəniyyəti ən yüksək səviyyədə qorunub saxlanılıb. Mən deyərdim ki, qədim keçmişin ən gözəl yadigarları olan adət-ənənələri qoruyub saxlamaq, unutmamaq böyük diqqət tələb edir. Mən Naxçıvanda bu qayğını hiss etdim. İnanıram ki, Naxçıvan mətbəxi öz zənginliyi, heyrətamiz dadı ilə bundan sonra da qonşu xalqların mətbəxinə təsir edəcək, özünəməxsusluğunu qoruyub saxlayacaq, heç vaxt unudulmayanlar sırasında yer alacaq.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## İdman

### Güləşçimiz bürünc medal qazanıb

Bakı şəhərindəki “Sərhədçi” İdman Olimpiya Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə və gənclər arasında Azərbaycan çempionatı keçirilib.



Çempionatda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi də iştirak edib. Belə ki, 51 kiloqram çəki dərəcəsində mübarizə aparan Kamal Qasımov bürünc medal qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

### Voleybol üzrə yoldaşlıq görüşü keçirilib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

“Naxçıvan Muxtar Respublikası – 95” devizi altında keçirilən görüşdə “Şahbuz” və “Ordubad” komandaları qarşılaşıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi görüş şahbuzlu voleybolçuların 3:2 hesablı qələbəsi ilə başa çatıb.

Sonda hər iki komandaya federasiya tərəfindən voleybol topları hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### Hərbi qulluqçular arasında daşqaldırma birinciliyi

*Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında keçirilən daşqaldırma birinciliyində 16 komandadan 90 idmançı 6 çəki dərəcəsində mübarizə aparıb.*

“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır” devizi altında təşkil olunan birincilik daşqaldırma yarışlarının proqramına daxil olan birdən və təkanla qaldırma üzrə keçirilib. Hər çəki dərəcəsində şəxsi yerlər hər iki növ çalışmada yığılmış ən çox xalla müəyyən edilib. Şəxsi hesabda əsgər Əliyar Məmmədov (60 kiloqram), baş çavuş Rəşad Həsənov (65 kiloqram), kursant Elməddin Sultanzadə (70 kiloqram), əsgər Turqut Məmmədli



(80 kiloqram), gizir Sərxan Zeynalov (90 kiloqram) və leytenant Səid Feyziyev (+90 kiloqram) birinci yerə layiq görülüblər.

Yekun nəticələrə əsasən komanda hesabında üçüncü yerdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ikinci yerdə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının komandası, birinci yerdə xüsusi təyinatlılar qərarlaşıb. İlk üçlüyə düşməyi bacaran qaliblər Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklarla mükafatlandırılıblar.

**Nəriman NƏCƏFOV**

**_İtmişdir_**

Əkbərov Məmmədtağı Həmzə oğlunun adına olan gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** **MEHRİBAN SULTANOVA**

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 163**